**Mirzə M.** Hiss edirəm ki, şəhidlik zirvəsinə ucalacağam... / M. Mirzə. - Текст : непосредственный // Respublika. - 2024. - 14 iyul. - **№ 146**. - S. 13.

**30 illik nifrət, qisas almaq əzmi Vətən müharibəsində qəhrəmanlığı alın yazısı seçən mərd oğullarımızı şəhidlik zirvəsinə yüksəltdi. Bu gün vətənimizin göylərində ruhu dolaşan, adı dillər əzbəri olan şəhidlərdən biri də Naiq Ələkbərovdur. Naiq Faiq oğlu Ələkbərov 1994-cü il avqustun 8-də Şamaxı rayonunun Bağırlı kəndində anadan olub.**

2000-2011-ci illərdə F.Şıxəliyev adına Bağırlı kənd tam orta məktəbində, 2012-2014-cü illərdə Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində "feldşer" ixtisası üzrə təhsil alıb. 2014-2015-ci illərdə "gizir" hərbi rütbəsi altında Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində feldşer kimi xidmət edib. Daha sonra 2015-ci ildə XTQ kurslarından uğurla keçən Naiq 2016-cı il Aprel döyüşlərində də iştirak edib, "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

2016-cı ilin 2-5 aprelində baş tutan döyüşlər zamanı Talış yüksəkliyi istiqamətində gedən döyüşlərdə kəşfiyyatçı kimi iştirak edib.

Azərbaycan Ordusunun giziri Naiq Ələkbərov İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Xocavənd və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Naiq oktyabrın 9-da Cəbrayıl döyüşləri zamanı şəhid olub. Şamaxı Şəhidlər Xiyabanında dəfn olunub. İki qızı, bir oğlu yadigar qalıb. Şəhidin həyat yoldaşı Əfsanə Ələkbərova: "Naiq tez-tez "Vatsap" statuslarında Polad Həşimovun "biz dünyadan köçər olduq, qalanlara salam olsun" videosunu paylaşırdı. Yoldaşımdan "sən tez-tez bu videonu niyə paylaşırsan" deyə soruşurdum. "Vaxt gələcək, məni anlayacaqsan" deyirdi. Hiss etmişdim ki, o, şəhid olacaq".

İkinci Qarabağ savaşında həm yoldaşını, həm də qardaşını itirən Əfsanə Ələkbərova hər iki şəhidilə qürur duyur: "Fəxr edirəm ki, iki şəhidim var. Bu ucalıq hər insana nəsib olmur. Tək qardaşım və həyat yoldaşımın xatirələri ilə yaşayıram. Hər ikisi Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhid olub. Onların qəlbində qorxu deyilən bir şey yox idi. Ürəkləri yalnız vətən üçün döyünürdü. Qardaşımın övladı yoxdur. Allah nəsib etmədi. Övladlarıma onların müharibədəki qəhrəmanlıqlarından danışıram. Naiq çox mehriban, qayğıkeş və vətənsevər biri idi. Övladlarına da hər zaman vətənin qorunmasından danışırdı. Aprel döyüşlərinə gedəndə xəbərim yox idi. Sonradan eşitdim ki, yoldaşım oradadır və çox qürurlandım. Ayağından yaralandığını heç kimə deməmişdi. Yoldaşım hər zaman mənə "başını dik tut"

deyirdi. Naiq ölməyib, hər zaman yaşayır və yanımızdadır. Bilirəm ki, onun övladları da onunla qürur duyacaq. Əlbəttə ki, onsuz yaşamaq çox çətindir. Uşaqlara atasızlıqlarını hiss etdirməməyə çalışıram. Amma "atam harada qaldı", - suallarına cavab verməkdə çətinlik çəkirəm. "Atanız yaxşı yerdədir, cənnətdədir və bizi görür", - deyə cavab verirəm. Yoldaşımla qardaşımın hər yerdə xatirələri var. Ölümündən əvvəl məndən halallıq istədi, övladlarını əmanət etdi. Noyabrın 6-sı oğlumun doğum günü idi. Ayın 1-i yoldaşım zəng etdi və oğlumla danışanda "qismət olsa, ata gələcək" deyə vəd verdi. Sonra məndən halallıq istədi. Dedi hiss edirəm ki, şəhidlik zirvəsinə ucalacağam. Uşaqlara "mən baxdığım kimi bax, onlara təhsil ver və hər zaman atalarından danış" dedi. Allah nəsib etsə, Naiqin dediklərini edəcəyəm. Bilirəm ki, ruhu hər zaman bizimlədir".

Şəhidin atası Faiq Ələkbərov Şamaxı rayon Faiq Şıxəliyev adına Bağırlı kənd tam orta məktəbində müəllim işləyir. O da oğlu kimi Birinci Qarabağ savaşında qəhrəmancasına iştirak edib: "O dövrdə nizamlı ordumuz yox idi. Amma vətən uğrunda son damla qanımıza qədər döyüşürdük. Oğlumu vətənpərvər ruhda böyütmüşdüm. Müharibəyə göndərəndə öz tövsiyələrimi verdim. Dedim bayrağımızı, xalqımızı hər yerdə uca tut. Şükür arzum ürəyimdə qalmadı və oğlum vətən yolunda başımızı uca etdi".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Naiq Ələkbərov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilib.